

Türküstan.- 2020.- 15-21 sentyabr. S. 22.

## Kül

Kağızın içində yandı bu ömür,-
Mən adam külüyəm, ya kağız külü?
Yanan ürəyimdə o qız da yandı,-
Bir az öz külüməm, bir az qız külü...

İndi bu gecələr ömürdən uzun,
Ölümlə oyunda ömür uduzur.
Hər axşam yandırır ayı - ulduzu,
Tanrı səhər yığır ay - ulduz külü.

Dərd çaxmaq daşıdı,- daşdan yanmışam,
Ayaqdan od alıb, başdan yanmışam,-
Baha eləmişəm bu ucuz külü...

## Deyəsən, o qızın Su idi adı

Sən demə, ölüm də əkimçi imiş,-
Torpaq ömürləri xışlayıb keçir.
Dünən bir - birinə çiçək atanlar,
Bu gün bir - birini daşlayıb keçir.

Şeytana daş atan özü də cinmiş.
Sonuncu ümid də dünən keçinmiş.
... Tanrı bu dünyadan gəlib keçibmiş,-
Ancaq yer üzündə düşməyib keçib...

Deyəsən o qızın Su idi adı,-
Hara axıb getdi, niyə qalmadı?
... Bu dünya elə bil qızıl almadı,
Hərə bir tərəfdən dişləyib keçir...

## Hansı albomunda soluram sənin?

Deyəsən, çox sevib, əzab verirəm,-
Dərdini çox çəkib yoruram səni?
Görək necə çıxır “GÜLÜN HEYKƏLİ”-
Hələ ləçək - ləçək yonuram səni...

Dünya çox cavandı, sevgim çox qədim,-
Oturub dünyanı nə çox gözlədim?!
Bilirəm, ayrılıq səni gizlədib,
Gedib ayrılıqdan soruram səni.

Odu atıb gedən bu kül kimiyəm,
Yolda azıb qalan fikir kimiyəm.
... Mən çoxdan çəkilmiş şəkil kimiyəm,-
Hansı albomunda soluram sənin?!..

**Əlizadə Nuri**